AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
ELMİ-METODİKA ŞÖBƏSİ

# Yetkinlik yaşına çatmamış uşaqlarla cinayətkarlığa qarşı mübarizə üsulları

**(metodik vəsait)**

**Bakı - 2014**

**Redaktor:** Şəhla Qəmbərova - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

**Tərtib edəni:** Nərgiz Məcidova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı

**Korrektor:** Məmmədli Ruhiyyə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri

**F.Köçəri adına Respublika Uşaq Kitabxanasının Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2009-cu il tarixli, 133 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Mili Fəaliyyət Planı" nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının (2009-2013-cü illər) icrası ilə bağlı görülmüş işlər üzrə hesabatı.**

Həyatımız üçün ciddi təhlükə yaradan fəaliyyətlər arasında insan alveri daha çox özünü qabarıq göstərir. Dünyanın qloballaşmaqda olan bu bəlası bizdən də yan keçməyib. Amma XXI əsrin ilk illərindən insan alverinə qarşı daha ciddi mübarizəyə başlanılıb. Artıq 2000-ci ildən başlayaraq insan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında beynəlxalq qətnamə və konvensiyalara qoşulmuşuq. Ayrıca, ölkədə bununla bağlı dövlət proqramları, eləcə də milli fəaliyyət planları həyata keçirilməkdədir. Tarixə nəzər salsaq, ildən-ilə insan alverinə qarşı mübarizənin ölkəmizdə gücləndiyini görərik. Bildiyimiz kimi, ölkəmizdə İnsan alverinə qarşı mübarizənin daha da qətiyyətli aparılması üçün ölkə prezidenti cənab İlham Əliyev Daxili İşlər Nazirliyində "İnsan Alverinə Qarşı Mübarizə İdarəsi"nin yaradılması haqqında sərəncam imzalamışdır. İnsan Alverinə Qarşı Mübarizə İdarəsi nə qədər bu cinayətkarlıqla mübarizə aparsa da, bizə lazım olan nəticə hələ də əldə olunmayıb, yəni hələ də vətəndaşlarımız aldanaraq İnsan alveri ilə məşğul olan "alverçilərin" toruna düşürlər. Bununla əlaqədar bütün mədəni maarif ocaqlarında maariflənmə işləri aparılmalıdır. İlk növbədə uşaqlar, yeniyetmələr öz hüquqlarını bilməlidirlər.

**3g. Uşaqların baxımsızlığına şərait yaradan səbəblərin və halların aşkar edilməsinə və aradan qaldırılmasına yönəldilmiş sosial, hüquqi, pedaqoji və digər tədbirlər paketinin hazırlanması və ondan səmərəli istifadə edilməsi maddəsi üzrə**

Azərbaycanda uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm addımlar atılmış, bir sıra qərar və qanunlar qəbul edilmişdir. Uşaqları maarifləndirmək, onları öz hüquqları barədə daha ətraflı məlumatlandırmaq kitabxanaların üzərinə düşən mühüm vəzifələrdən biridir. Elmi metodika şöbəsi uşaq kitabxanaçılarına kömək məqsədilə "Uşaq kitabxanalarında uşaq hüquqlarının təbliği", "Beynəlxalq Uşaq Hüquqlarının müdafiəsi günü", "Yetkinlik yaşına çatmayanların cinayətkarlığına qarşı mübarizə" adlı vəsait hazırlamış və respublika uşaq kitabxanalarına göndərmişdir. Bundan əlavə kitabxanamızda Beynəlxalq uşaq hüquqlarının müdafiəsi ilə bağlı keçirilən bir sıra tədbirlərdə uşaqların, yeniyetmələrin, hətta valideynlərin hüquqi cəhətdən maariflənməsinə kömək edilmişdir. Elmi-metodika şöbəsi ezamiyyələr təşkil edərək rayon uşaq kitabxanaılarında uşaq hüquqlarının təbliği haqqında kitabxanaçılara sərgilərin

təşkilində, mövzu ilə əlaqədar keçirilən tədbirlərin hazırlanmasına da öz köməkliyini əsirgəməmişdir.

Dövlət Proqramının kitabxanaçıların qarşısında qoyduğu vəzifələrdən biri rayon kitabxanalarında yaradılan informasiya mərkəzlərinə kömək etməkdən ibarət olmuşdur. F. Köçərli ad. RUK-nın Məlumat-biblioqrafiya şöbəsi bu sahədə bir sıra işlər görmüşdür. 2009-cu ilin "Uşaq ili" elan olunması ilə əlaqədar "Uşaqlara dövlət qayğısı" adlı ədəbiyyat siyahısı hazırlayıb rayon kitabxanalarına göndərmişdir ki, rayon kitabxanalarında bu siyahı əsasında kartoteka qutusu hazırlansın və kartoteka qutusu kitabxananın gələcəkdə əldə edəcəyi materiallarla zənginləşdirilsin. Bu siyahıda ədəbiyyatla yanaşı həm də uşaqlara dair müdrik sözlər də öz əksini tapmışdır. Bundan əlavə həmin informasiya guşəsini materiallarla zənginləşdirmək məqsədilə uşaqlara dair hüquqi sənədlər ("Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu", "Uşaq hüquqları Konvensiyası", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu", "Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu", "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu" və s.) əlavə edilmişdir. Daha sonra şöbə narkomaniya ilə mübarizə sahəsində "Sağlam həyat tərzi keçirək" adlı ədəbiyyat siyahısı hazırlayaraq müvafiq hüquqi sənədlərin ("Narkoloji xidmət və nəzarət haqqında Azərbaycan Respublikasının Qanunu") müşaiyəti ilə Xaçmaz, Yardımlı, Şirvan, Kürdəmir, Quba, Şəmkir, Tovuz və digər rayonlara göndərilmişdir.

13 oktyabr 2009-cu ildə F.Köçərli adına Respublika Uşaq kitabxanasının oxu zalında kitabxana işçiləri üçün Uşaq Hüquqları ilə bağlı treninq, mühazirə keçirildi. Maariflənmə məqsədi daşıyan bu tədbirin aparıcıları uşaq hüquqları üzrə müvəkkil, beynəlxalq əlaqələr sektorunun müdiri – Zaur Zamanov, hüquqi maarifləndirmə sektorunun müdiri, böyük məsləhətçi – Faiq Ağayev idi.

Tədbirdə konvensiyanın ayrı-ayrı maddələri, Yuvenal ədliyyə, uşaq hüquqları klinikası və s. mövzular üzrə diskussiya oldu. Maraqlanan suallar cavablandırıldı.

18 noyabr 2009-cu ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanası Ümumdünya Uşaq Hüquqları günü, Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin 20 illiyi, həmçinin 2009-cu il uşaq ili ilə əlaqədar Hüquq həftəsi çərçivəsində Binəqədi rayonundakı 144 saylı məktəbin IX və X sinif şagirləri arasında (40 nəfər) "Hüquq biliciləri" adlı maariflənmə işi aparıldı, diskussiya təşkil olundu. Tədbirdə Ombudsman nümayəndələrindən hüquqi maarifləndirmə

sektorunun baş məsləhətçisi Rəşid Rumizadə, insan hüquqları müdafiəsi şöbəsinin məhbusların hüquqlarının müdafiəsi sektorunun böyük məsləhətçisi Lalə Əzimova, Bakı baş təhsil idarəsinin əməkdaşı Fəttah müəllim, tarix və ədəbiyyat müəllimləri iştirak edirdi. Tədbiri giriş sözü ilə kitabxananın elmi işlər üzrə direktor müavini Z.Dadaşova açaraq hüquq həftəsi çərçivəsində keçirələcək tədbirlərdən, "Baş rolda mənim hüquqlarım" adlı rəsm müsabiqəsindən söhbət açdı. Diskussiyada uşaqlar maraqlı suallarla çıxış etdilər. Tədbirin sonunda uşaqlar arasında komandalar şəklində interaktiv oyun keçirildi. Test tapşırıqlarını düzgün həll edən, plakatı hazırlayıb yaxşı təqdimat hazırlayan komandalar mükafatlandırıldı. Bütün uşaqlara uşaq hüquqları ilə bağlı kitabxananın hazırladığı xülasə paylandı.

20 noyabr 2009-cu ildə Ümumdünya Uşaq Hüquqları günü, Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin 20 illiyi, həmçinin 2009-cu il uşaq ili ilə əlaqədar Hüquq həftəsi çərçivəsində keçirdiyi "Baş rolda mənim hüquqlarım" adlı rəsm müsabiqəsinə yekun vuruldu. Müsabiqənin qalibi Nəsimi rayonundakı 1 saylı məktəbin VII d sinif şagirdi Atacanova Kamilla oldu. 28 saylı məktəbin I sinif şagirdi Həbibov Əlihəsən II yerə, 190 saylı məktəbin VI sinif şagirdi Əzizova Gülər III yerə, Binəqədi rayonu 267 saylı məktəbin VIII sinif şagirdi Maniyev Qəmbər isə həvəsləndirici yerə layiq görülməklə diplom və mükafat əldə etdilər. Uşaqlara "Göy qurşağı" jurnalı və məktəb ləvazımatı hədiyyə edildi.

24 noyabr 2009-cu ildə Nəsimi rayonu 1 saylı məktəbdə Hüquq həftəsi çərçivəsində uşaqların hüquq bayramı keçirildi. Bayram (sözləri Gülnur Aslan, musiqisi Novruz Aslan) Rəşad İlyasovun ifasında "Uşaqları qoruyaq" klipinin proyektor vasitəsilə nümayişi ilə başladı. Tədbirdə müxtəlif yaş qrupları üzrə 70-dən çox uşaq iştirak edirdi. Ombudsman nümayəndələrindən hüquqi maarifləndirmə sektorunun baş məsləhətçisi Rəşid Rumzadə, uşaq hüquqları müdafiəsi sektorunun böyük məsləhətçisi Fərqanə Məmmədxanova, Bakı baş təhsil idarəsinin əməkdaşı Yaqut Məmmədova, Təhsil nazirliyindən Aysel Hacıyeva, Bülbül adına musiqi məktəbinin özfəaliyyət kollektivi, məktəbin tarix, ədəbiyyat, psixologiya müəllimləri iştirak edirdi. Tədbiri giriş sözü ilə kitabxananın elmi işlər üzrə direktoru Z.Dadaşova açaraq hüquq həftəsi çərçivəsində keçirilmiş digər tədbirlərdən, rəsm müsabiqəsindən söhbət açdı. Müsabiqənin qalibi 1 saylı məktəbin VII d sinif şagirdi Atacanova Kamillaya diplom və hədiyyə təqdim edildi. Uşaqlar maraqlı suallarla Ombudsman nümayəndələrinə müraciət etdilər. Bütün uşaqlara "Göy qurşağı" jurnalı, xülasə  hədiyyə edildi. Uşaqlar üçün təşkil olunan bayram "Qoy həmişə günəş olsun" musiqisinin müşayiəti ilə sona çatdı.

2010-cu il noyabır ayının 22-də Səbayel rayonunun 16 saylı Texniki və Humanitar liseyndə Uşaq Hüquqları Konvensiyasının qəbul olunmasının 21-ci ildönümü və Ombusmanın uşaq hüquqları aylığı çərçivəsində "Mənim hüquqlarım" adlı tədbir kecirdi. Tədbir Azərbaycanın Dövlət Himni ilə başladı.

Sonra məktəbin direktoru Ülviyyə xanım, kitabxananın milli ədəbiyyatın təbliği şöbəsinin müdiri Nazilə xanım tədbirlə bağlı çıxış etdilər. Çıxışlarında əsasən uşaqların təkcə məktəb daxilində hüquqlarının qorunmasından deyil, ümumiyyətlə Uşaq Hüquqların Konvensiyası daxilində qəbul olunmuş bütün hüquqlar haqqında, həmçinin uşaq əməyinin istismarı ilə bağlı maraqlı məlumat verdilər. VIII və IX sinif şagirdləri uşaq hüquqları ilə bağlı cıxışlar və onların hüquqlarının pozulması ilə bağlı səhnəcik göstərdilər. Uşaqlardan Hüseynov Dilavər, Babayev İbrahim, Cəmilə Həyatova, Babayeva Nigar öz cıxışlarını musiqi, şeir və rəqs ilə bəzədilər. Azərbaycanda Uşaq və Gənclərin Sülh şəbəkəsinin sədri Mehriban xanım tədbirdə iştirak edirdi. Şəbəkənin üzvü olan Nazinka Mehdili öz təşkilatları haqqında uşaqlara məlumat verdi. Tədbirin sonunda F. Köçərli adına kitabxananın İncəsənət şöbəsinin müdiri Nazilə xanım şagirdlərə "Siz öz hüquqlarınızı bilirsinizmi?" adlı bukletləri, kitabxananın bələdçisini təqdim etdi, uşaqları məktəbin foyesində təşkil etdikləri "Uşaq hüquqları konvensiyası" adlı sərgiyə baxmağa dəvət etdi.

Uşaq Hüquqları Konvensiyasının qəbul olunmasının 21-ci ildönümü və Ombusmanın uşaq hüquqları aylığı çərçivəsində "Bu da mən" adlı rəsm müsabiqəsi keçirilmiş, qaliblər mükafatlanmışdır. Ombusman nümayəndəliyindən Ziba xanım Məmmədova , "Uşaqdan uşağa sülh şəbəkəsi"nin uşaqları tədbirdə iştirak etmiş, nümayəndəliyin uşaqlarla keçirdiyi tədbirlərindən danışmışdır.

2012-ci ildə 1 dekabr- AİDS-ə qarşı mübarizə günü ilə əlaqədar bir sıra məktəblərdə (16,42,152) treninq mühazirələr interaktiv oyunlar əsasında keçirilmişdir.

Veb-saytımızda kitabxanamızda yaranan hüquq informasiya mərkəzi ilə əlaqadar saytımızın menyusunda hüquq rubrikası yaranmışdır. Həmin rubrikada qanunlar, uşaq hüquqları ilə bağlı xülasələr, uşaqlar üçün maraq doğuracaq slaydlar, qaynar xətt telefon nömrələri və s. verilmişdir. Həmin materiallardan respublikada fəaliyyət göstərən bütün uşaq kitabxanaları, həmçinin məktəblər istifadə etməklə bu sahədə maraqlı tədbirlər həyata keçirəcəklər.

**11e. Ölkə ərazisində insan alverinin qarşısının alınması məqsədi ilə treninq və seminarların keçirilməsi.**

30 may 2013-cü il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrasını təmin etmək məqsədilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "İnsan Hüquqları Aylığı" çərçivəsində "Cəzaçəkmiş Qadınların Cəmiyyətə Qayıdışı" İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında Dəstək Şurasının maliyyə dəstəyi ilə "Məişət zorakılığına qarşı qabaqlayıcı tədbirlərin keçirilməsi və ailədaxili zorakılıq qurbanlarına hüquqi yardım" mövzusunda təlim təşkil edildi.

Təlimdə “Cəzaçəkmiş Qadınların Cəmiyyətə Qayıdışı” İctimai Birliyinin sədri Fəridə Əliyeva, psixoloq Aida Nəbiyeva, sosial işçi Gülnar Nəzərova, hüquqşünas Samirə Eyvazova, ictimai vəkil Gülayə Cəfərova, BDU-nun hüquq fakultəsinin tələbələri – gənc hüquqşünaslar, kitabxanaçılar, uşaq hüquqlarının müdafiəçiləri iştirak edirdi. Təlimin təşkilinin məqsədi gələcəyin gənc mütəxəssislərinin məişət zorakılığı ilə mübarizə sahəsində peşəkar hüquq müdafiəçisi kimi formalaşdırılmasına dəstək olmaqla onları, uşaqlarla işləyən kitabxana əməkdaşlarını maarifləndirmək idi. Interaktiv şəkildə keçirilən təlimdə iştirakçılara məişət zorakılığı barədə ümumi məlumat verildi, məişət zorakılığı sahəsində mövcud qanunlar təhlil olundu, peşəkar hüquqşünas, ictimai vəkil və psixoloqlar öz təcrübələrini iştirakçılarla bölüşdülər.

Sosial işçi Gülnar xanım öz çıxışında bildirdi ki, Azərbaycan Respublikası CEDAW Konvensiyasını, yəni Birləşmiş Millətlər Təşkilatının (BMT) Qadınlara qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Konvensiyanı 1995-ci ildə ratifikasiya edib. 2001-ci il də isə qeyd olunan Konvensiyanın 1 saylı Protokolunu imzaladıqdan sonra Azərbaycan Respublikası məişət zorakılığının qarşısının alınması barədə qanunvericilik bazasını yaratmağı öhdəsinə götürmüşdür.

Tədbirdə çıxış edən mütəxəssislər müzakirələr zəminində tədbir iştirakçılarının suallarını cavablandırdı. Tədbir iştirakçıları ictimai birlik tərəfindən tərtib olunmuş anket rəy sorğusu vasitəsilə öz fikirlərini, rəylərini bildirdilər.

Tədbirin sonunda kitabxananın direktoru Fizurə xanım Quliyeva keçirilən təlim-mühazirələrlə bağlı ictimai birliyə öz minnətdarlığını bildirdi, kitabxananın əməkdaşı Zahirə Dadaşova təşkilata öz təkliflərini verdi:

1.Təlim-mühazirələr istər paytaxtda, istərsə də regionlarda nigah qeydiyyatına ərizə verən bütün cütlüklərlə ayda bir dəfə olmaqla keçirilsin. Bu da gələcəkdə məişət zorakılığının qarşısının alınmasında böyük rol oynayar. İcra hakimiyyəti orqanları bu təlimin keçirilməsinə əhəmiyyət versinlər, təlim keçməyən cütlüyün nigahı bağlanmasın. Çünki yeni ailə quran gənclərin öncədən məlumatlanmaları daha vacibdir.

Keçirilən tədbirlərdə insan alveri və məcburi əməyin qurbanı və potensial qurbanı olan uşaqlara video çarxlı slaydlar göstərməklə təlimlər keçirilmişdir. Təklif kimi onu demək istərdik ki, uşaq əməyinin istismarı, uşaq alveri, onların aldadılması ilə bağlı yeni video materiallar və sosial reklamlara ehtiyac vardır.

Ümumiyyətlə cəmiyyətdə insan alveri və məcburi əməyin qurbanı və potensial qurbanı olan kimsəsiz uşaqların effektiv sosial reabilitasiyası, sosial reinteqrasiya və dəstək mexanizmlərinin gücləndirilməsi üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq istiqamətində birgə tədbirlər həyata keçirilməlidir.

**11a. İnsan alverinin, qanunsuz miqrasiyanın mahiyyəti və onların doğurduğu təhlükələr barədə ictimaiyyətin məlumatlandırılması.**

İnsan alveri, uşaq əməyinin istismarında narkomaniya əsas rol oynayır.

Bu gün bəşəriyyəti düşündürən və rahatsız edən ən ağrılı problemlərdən biri də cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniya və geniş anlamda narkotizmdir. Cəmiyyətdə "Ağ ölüm" kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır. Bu bəladan xilas olmaq üçün maarifləndirmə işləri ilə yanaşı, yeniyetmə və gənclər arasında geniş təbliğat işləri aparılmalıdır.

Gənclərin mənəvi-əxlaq tərbiyəsi, onlar arasında cinayətkarlığın, narkomaniyanın və digər mənfi meyllərin azaldılması və aradan qaldırılması vəzifəsi hər bir təhsil-tərbiyə müəssisəsinin, bu sahədə çalışan hər bir işçinin qarşısında duran məsul vəzifədir.

Sona Xəyalın kitabından götürülmüş ***"İnsanın düzgün tərbiyəsi, sağlamlığı, cəmiyyətdə saf mövqeyi qarşıda duran ən böyük vəzifələrdən biridir. Bu vəzifənin yerinə yetirilməsi üçün cəmiyyətin hər bir üzvü məsuliyyət daşıyır. Heç kəs bu işdən kənarda qalmamalıdır. Düşünmək lazımdır ki, gələcək bu gündən başlayır"*** sözləri kitabxanaçıların qarşısında duran məsuliyyətli bir vəzifəni həyata keçirməyə sövq edir.

F.Köçərli adına Respublika Uşaq kitabxanası Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2007-ci il tarixli 2271 saylı Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər)"ın tələblərindən irəli gələn vəzifələri yerinə yetirmək və Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyanın "İş Planı"ndan irəli gələn bir sıra vəzifələrin icrasını təmin etmək məqsədi ilə "Narkomaniyaya yox deyək!" devizi altında tədbirlər planına uyğun olaraq məktəblərdə, internat və uşaq evlərində tədbirlər keçirmişdir.

2013-cü il 27 may tarixində 2 saylı filial SOS uşaq kəndində "Gələcəyə sağlam addımlarla" mövzusunda tədbir keçirdi. Tədbiri giriş sözü ilə açan kitabxananın filial müdiri Gülarə xanım tədbirə dəvət olunmuş şəxsləri təqdim etdikdən sonra tədbirin keçirilməsinin məqsədi və mahiyyətindən danışaraq narkomanlığa qarşı kütləvi surətdə mübarizə aparmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2271 saylı sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə dövlət proqramı"nın əhəmiyyəti haqqında dinləyiciləri ətraflı məlumatlandırdı. Daha sonra Xətai rayon Gənclər və İdman İdarəsinin əməkdaşı çıxış edərək narkotik maddələrə

aludəçiliyin ən çox yeniyetmə və gənclər arasında təsadüf olunduğunu vurğuladı, bunun da ağır nəticələri ailə münaqişələri, qeyri - normal həyat tərzi, xəstə uşaqların həyata gəlməsi və s. problemlərlə müşayiət edildiyini söylədi. Çıxışlardan sonra yeniyetmələr arasında narkomanlığa alüdəçiıiyin ilkin mərhələlərdəcə aradan qaldırılması yollarının təhlili haqda fikir mübadilələri aparıldı, məsləhət və tövsiyyələr dinlənildi, şagirdləri maraqlandıran suallar cavablandırıldı. Tədbirin sonunda SOS uşaq kəndinin sakinlərinin çəkdikləri rəsmlərə baxış keçirildi. Sərgi iştirakçılarına hədiyyələr verildi.

3 iyun 2013-cü ildə kitabxananın oxu zalında "Narkomaniyaya qarşı mübarizə və sağlam həyat tərzi" mövzusunda tədbir keçirildi. Tədbirdə oxucular arasında rəy sorğusu aparıldı, slaydlara baxıldı, maarifləndirici məlumatlar verildi. Azərbaycan Uşaq Birliyinin nümayəndəsi Dadaş Əhmədzadə bildirdi ki, narkomaniya bəşəriyyətin bəlalarından biridir. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin " Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən 26 iyun " Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü " kimi qeyd olunur. Ayrı-ayrı dövlətlər ildən-ilə narkotiklərin qanunsuz dövriyyəsi ilə səmərəli mübarizə üsullarını və narkomanlığın müalicə metodlarını təkmilləşdirmək və bu sahədə yeni mübarizə üsullarını kəşf etmək istiqamətində səylərini artırırlar. Fərdi şəkildə və ya beynəlxalq əməkdaşlıq çərçivəsində bu problemə qarşı birgə mübarizə aparılmasına baxmayaraq, dünya üzrə narkomaniyaya düçar olanların sayı ildən-ilə artmaqdadır. Müxtəlif adamlar tərəfindən eyni iynədən venadaxili narkotik maddə qəbul etməyə görə 90 faiz narkoman QİÇS xəstəliyinə yoluxmuşdur. Son illər Respublikamızda narkotik vasitələrə və bihuşedici maddələrə qarşı mübarizə xeyli güclənmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, QHT-lər, ictimai təşkilatlar da fəallığı xeyli artırmışdılar. Bununla yanaşı, Azərbaycanda narkomaniyaya qarşı mübarizə üzrə maarifləndirmə işlərinin səviyyəsi də artırılmalıdır. Narkotiklərdən istifadənin təhlükəli nəticələri üzrə maarifləndirmə lazımi səviyyədə aparılmadığından, ölkədə narkomaniya " cavanlaşır ". Bu istiqamətdə maarifləndirmə nəinki Bakıda, həm də ölkənin bütün regionlarında aparılmalıdır. Onun sözlərinə görə, narkomaniyaya qurşanan şəxsləri sonradan müalicə etmək çox çətin olur. Belə ki, narkotik vasitə qəbul edən şəxslər oğurluğa da meylli olurlar.

Tədbirin sonunda orta məktəb şagirdləri ilə tədbir iştirakçıları arasında dialoq aparıldı. Şagirdlər narkomaniyanın törətdiyi bəlalardan danışdılar və belə halları pislədilər. Həmçinin şagirdlər məişət zorakılığı ilə bağlı mövzularda tədbir iştirakçılarına suallar ünvanladılar. Anket test sorğuları müzakirə edildi.

İl ərzində bir sıra məktəblərdə bu mövzuda yazan yazıçılarla oxucuların görüşləri təşkil olunmuşdur. Bakının Yasamal rayonundakı 53 saylı məktəbin

yuxarı sinif şagirdləri ilə E.Elatlının "Görünməyən izlər" kitabının müzakirəsi keçirilmişdir.

Həmçinin xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin katibi, PEN klubun vitse-prezidenti, hüquq elmləri doktoru, " Şöhrət " ordenli Çingiz Abdullayevlə görüş keçirilmişdir. Tədbirdə Ç.Abdullayevin həyatı, yaradıcılığının əsas istiqamətləri haqqında "Bizim əbədi Dronqo" adlı çarxlı slaydın nümayişi ilə rus və azərbaycan dillərində məlumat verilmişdir. Görüşdə yazıçının "Göy mələklər", "Qisasın ölçüsü" kitablarının müzakirəsi keçirilmişdir.

Daha sonra xalq yazıçısı Çingiz Abdullayev öz yaradıcılığından, yazdığı son kitablarından və onları yazarkən rastlaşdığı maraqlı hadisələrdən danışdı. Görüş oxucuların sualları ilə davam etdi. Yeniyetmələrin və digər iştirakçıların suallarını cavablandırarkən Çingiz Abdullayevin bölüşdüyü xatirələr iştirakçıların böyük marağına səbəb olmuşdur.

Keçirilən bu tədbirlər yeniyetmələri vətənpərvərlik ruhunda tərbiyə olunmağa, əsl vətəndaş kimi formalaşmağa, intellektual səviyyələrini daim yüksəltməyə, dünyagörüşünü genişləndirməyə bir çağırış oldu. Yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, onlarda elmə, biliklərin əldə edilməsinə maraq oyadılmasında bu cür tədbirlərin əhəmiyyəti böyükdür.

**11 c. İnsan alverinə qarşı mübarizə haqqında sosial reklamların nümayiş etdirilməsi**

2011-ci il aprelin 26-da F.Köçərli adına Respublika Uşaq Kitabxanasında **"Narkomaniyaya yox deyək!"** mövzusunda treninq-mühazirə keçirildi. Tədbirdə kitabxananın əməkdaşları, Nəsimi rayonundakı 42 saylı məktəbin müəllim və şagirdləri iştirak etdilər. Kitabxananın elmi işlər üzrə direktor müavini Zahirə Dadaşova uşaqlarla treninq-mühazirə keçirdi, narkomaniyanın dəhşətli fəsadları, ona qarşı mübarizə tədbirləri haqqında geniş məlumat verdi. Tədbir iştirakçılarına bu bəladan törəyən QİÇS xəstəliyi (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) haqqında geniş məlumat verdi, narkomaniyaya aludə olmuş yeniyetmələrdən alınan müsahibələri onların diqqətinə çatdırdı. Həmçinin Z.Dadaşovanın hazırladığı narkomaniyanın fəsadlarını özündə əks etdirən "**Narkomaniya nədir?" adlı çarxlı təqdimat slaydları** nümayiş etdirildi. Tədbirdə iştirak edən Bakı Şəhər Narkoloji Dispanserin həkimi Təriqə Quliyeva şagirdləri maraqlandıran bütün sualları cavablandırdı. Məktəblilərin narkomaniya ilə bağlı bilgiləri komandalar şəklində interaktiv oyun əsasında yoxlanıldı, daha yaxşı plakat hazırlayaraq təqdim edən komanda mükafatlandırıldı. Digər tədbir iştirakçılarına kitabxananın təsis etdiyi "Göy qurşağı" jurnalı verildi.

2011-ci ildə Yasamal rayonundakı 60 nömrəli orta məktəbdə **“Narkomaniya- Ağ ölüm”** mövzusunda tədbir keçirildi.Tədbiri giriş sözü ilə açan məktəbin direktoru bildirdi ki, son illərdə dünyada narkotiklərə nəzarət, narkomaniya ilə mübarizə istiqamətində bir sıra ciddi tədbirlər görülür. Ümumbəşəri bir problemə çevrilən narkomaniyanın fəsadlarından söz açıldı. Qeyd edildi ki, narkomaniyaya qurşananlar təhsilə, işə, ailəyə, dostlarına maraqlarını itirir və özlərini cəmiyyətdən təcrid edirlər. Beləliklə də insan həyatı zəhərlənir. Buna görə də ümumbəşəri problemin profilaktikası sahəsində Azərbaycanda da bu cür məqsədyönlü proqramlar həyata keçirilir.Tədbirdə "Resurs" Gənclərin İnkişafı İctimai Birliyinin sədri Samir Mehdizadə qeyd etdi ki, ilk öncə ailə tərbiyə ocağıdır. Ona görə də ailədə və ailədaxili münasibətlərdə sağlam psixopedaqoji mühitin olması çox zəruridir. Psixoloq Səidə Musayeva və başqaları çıxış edərək narkomaniyaya qarşı aparılan maarifləndirmə işlərinin əhəmiyyətindən danışdılar.

**11ç. İnsan alverinə qarşı mübarizəyə dair maarifləndirici vasitələrin hazırlanması və paylanması.**

2012-ci ildə Məlumat biblioqrafiya şöbəsi Narkomaniya ilə mübarizə sahəsində maarifləndirmə işi aparmaq məqsədilə “Sağlam həyat tərzi keçirək” başlığı altında buklet hazırlamışdır. Bu bukletdə Azərbaycan Respublikasının “Gənclər siyasəti ” və “Narkoloji xidmət və nəzarət haqqında ” qanunlarının maddələri öz əksini tapmış və yeniyetmələr arasında təbliğat işi aparmaq üçün ədəbiyyat siyahısı verilmişdir. Həmin buklet kitabxanada və kitabxananın məktəb və məktəbdənkənar tərbiyə müəssisələrində təşkil etdiyi tədbirlərdə uşaqlara paylanmışdır.

Bundan başqa Məlumat-biblioqrafiya şöbəsi 2 saylı texniki-humanitar liseyində, 164, 152 saylı məktəblərdə yuxarı sinif şagirdləri üçün “Sağlam həyat tərzi keçirək” başlığı altında sərgi icmallar da təşkil etmişdir. Bu sərgilərdə kitabxanaçılar hər şeydən əvvəl bu mövzuya aid olan dövlət sənədləri haqqında yeniyetmələrə məlumat vermiş, narkomaniyanın fəsadları haqqında açıq söhbət aparmışlar. Sərgidə nümayiş etdirilən İ. Qarayevin “Məni tanıdınmı?”, Ç. Abdullayevin “Mavi mələklər” və “Qisasın ölçüsü”, E.Elatlının “Görünməyən izlər”, N. Əfəndiyevanın “Gəlin söhbət edək”, S.Xəyalın “Təbiət, təbabət və insan: tibbi-bioloji yazılar” kitabları uşaqların diqqətini cəlb etmişdir. Kitabxanaçılar həmin kitablar haqqında oxuculara geniş məlumat vermişdir. Bu tədbirlər uşaqların bu mövzuda olan ədəbiyyata marağını artırmış və oxucu sorğularının çoxalmasına səbəb olmuşdur.

**11b. Milli Fəaliyyət Planının məqsəd və mahiyyətinin ictimaiyyətə çatdırılması maddəsi üzrə**

2009-cu il 8 may tarixində F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşəbbüsü ilə Yetkinlik yaşına çatmayanların 4 saylı uşaq koloniyasında tədbir keçirildi. Tədbiri giriş sözü ilə Ana və uşaq Dövlət Komitəsinin sədr müavini Səadət xanım açdı. Sonra isə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Fizurə xanım tədbirlə bağlı öz fikirlərini söylədi. Tədbirdə Azərbaycan Dövlət Milli Kitabxanasının şöbə müdiri Xuraman İsmayılova, Şairə Fəridə Hacıyeva, yazıçı Nüşabə Məmmədli və b. çıxış etdi. Uşaq koloniyasında tərbiyə olunan uşaqlara dövlət orqanlarının həyata keçirdiyi cinayətkarlıqla bağlı məlumatlar verildi. Keçirilən tədbir Uşaq Alverinə, uşaq əməyinin istismarına, hüquq pozuntularına qarşı mübarizə sahəsində maarifləndirmə işini həyata keçirməklə dövlətin apardığı uğurlu mübarizə siyasətinə dəstək oldu.

02 aprel 2010-cu ildə F.Köçərli adına Respublika Uşaq kitabxanasının oxu zalında Azərbaycan Yazıçı Qadınlar Cəmiyyəti İctimai Birliyinin sədri, Rəsul Rza adına Beynəlxalq mükafatı laureatı Nüşabə Məmmədlinin "Vicdan dustağı" kitabının təqdimat mərasimi oldu. Tədbirdə yazıçılardan kitabın redaktoru Firuzə Məmmədli, "Yazıçı qadınlar" jurnalının məsul katibi Nafilə Abuzərli, Mirvari Rəhimzadə, Xeyrəddin Qoca, İntiqam Mehdizadə, Mədəniyyət və Turizm Nazirliyi Kitabxana sektorunun müdiri Lətifə Məmmədova, Təhsil Nazirliyinin məsul katibi Südabə Həsənli, Ombusman əməkdaşlarından Ziba Məmmədova, Ailə və Uşaq Problemləri komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Laçın mədəniyyət evinin baş inspektoru Hacı Nizami, muzey və kitabxana əməkdaşları, jurnalistər iştirak edirdi. Çıxışlarda qeyd olundu ki, oxucuların böyük marağına səbəb olmuş "Zəngulə" romanı, "Bu bir oyundur" kitabları Qarabağ mözvusunda yazılmış ən gözəl əsərlərdir. "Vicdan dustağı" kitabı yazıçının altıncı kitabıdır. Bu təqdimatdan sonra bir sıra məktəblərdə oxucularla kitab müzakirəsi keçirəcəyik. Sonra yazıçının əsərləri üzrə çıxışlar başladı. Tədbiri aparmaq söz ustadı Xeyrəddin Qocaya tapşırıldı.Çıxış edənlər əsərlə bağlı öz dəyərli fikirlərini bildirdilər: Yazıçı Qadınlar İctimai Birliyinin sədri Nüşabə Məmmədli Azərbaycan qadınlarının heç zaman faciələrdən sarsılmadığını, vətən yolunda ata, ər, qardaş və oğullarını şəhid verdiklərini, çətinliklərə mətanətlə sinə gərdiklərini nəzərə çatdırıb. ...Əslində onun yaratdığı əsərlər həyatımızın ibrət dərsləridir. Onlar bütün zamanlar üçün müasirdir, çünki onların mərkəzində insan və onun mənəviyyatı durur. Yazıçı təkcə oxucu yox, bütövlükdə cəmiyyət qarşısında sual qoyur? Sən vicdan nədir bilirsənmi? Vicdan çiynində daşıdığın yük deyil ki, onu daşıyasan. Vicdan səni bir ömürlük həyat yükündən qurtaran dirəkdir.

12 fevral 2010-cu ildə Səbail rayonu 190 saylı məktəbdə yazıçı Varis ilə görüş oldu. Tədbirdə onun "Bir ovuc torpaq" ikinci kitabının (birinci kitabı – " Sonuncu ölən ümidlərdir") təqdimatı və müzakirəsi keçirildi. IX sinif şagirdləri

romandan ayrı- aytı parçalar göstərdilər. Sonra isə iştirakçılar romanla bağlı yazıçıya öz suallarını verdilər. O yazıçı xoşbəxtdir ki, onu sevirsən, oxuyurlar. Bu mənada Varis ustad yazıçıdır. Kitab belə seriya ilə buraxılıb: Kitab oxumağın vaxtı yetişdi. Varis ilə ədəbiyyatın lal sükutu dəyişdi. Çingiz Abdullayev demişkən, bu kitab milyonlar içində seçilən kitabdır. Kitabda vətənpərvərlik hissləri çox güclü verilmişdir.

2011- ci il iyulun 15-də kitabxanamızın əməkdaşları 4 saylı uşaqların cəzaçəkmə məntəqəsində tədbir keçirdi. Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi ilə birgə hazırlanmış bu tədbirdə yazıçı Nüşabə Məmmədli, uşaq yazıçılarından Sevinc Nuruqızı, Gülzar İbrahimova, Ələmdar Quluzadə, müğənni-aşıq Məhsəti iştirak edirdi. Giriş sözü ilə tədbiri F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru F.Quliyeva açaraq bədii ədəbiyyatın, mütaliənin gənclərin tərbiyəsində müstəsna rol oynadığından, onların intellektual səviyyəsinin yüksəlməsində kitabın böyük təsirindən danışdı. Sonra yazıçılar çıxış etdilər.

2 fevral 2011-ci ildə Məlumat-biblioqrafiya şöbəsi Həbib bəy Mahmudbəyov adına 2 saylı texniki –humanitar liseyində Azərbaycan Gəncləri Günü münasibətilə tədbir keçirdi. Tədbirdə yuxarı sinif şagirdləri arasında “Müasir gənclər və onların cəmiyyətdə rolu” adı altında debatlar təşkil olundu. S.Əhmədova “Azərbaycan Gəncləri Günü”nün təsis olunması tarixindən, dövlətin gənclərə göstərdiyi qayğıdan, bu qayğının həyata keçirilməsində mühüm rol oynayan dövlət sənədlərindən (“Gənclər siyasəti haqqında”, “Xüsusi istedada malik olan uşaqıarın (gənclərin) yaradıcılıq potensialının inkişaf etdirilməsi üzrə Dövlət Proqramı (2006-2010-cu illər), “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” və s.), bu gün gənclərimizin ədəbiyyat, idman və digər sahələrdə əldə etdiyi uğurlardan danışdı. Debatlarda iştirak edən yuxarı sinif şagirdləri özlərinin vəzifələrindən, problemlərindən, arzularından, cəmiyyətdə tutduqları və tutmaq istədikləri mövqe haqqında fikirlərini açıqladılar, sevdikləri şeirləri əzbər söylədilər. Liseyin müəllimləri Ü.Tahirzadə , T.Əliyeva , K.Məmmədova tədbirin həm hazırlanmasında, həm də keçirilməsində yaxından iştirak etdilər, tədbirin maraqlı keçməsi üçün lazımi şəraiti yaratdılar. Tərtib olunmuş kitab sərgisinin birinci hissəsində gənclərə, onların ictimai fəaliyyətinə həsr olunmuş kitablar, ikinci hissəsində müvafiq dövlət sənədləri, üçüncü hissədə isə “Gənclik və Poeziya” başlığı altında yubilyar şairlərimizin (Mədinə Gülgün, Balaş Azəroğlu, Söhrab Tahir, Əıi Kərim, Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Vahid Əziz) kitabları nümayiş etdirildi. Eyni zamanda şagirdlər şeir söylədikcə həmin yazarların həyat və yaradıcılığı haqqında onlara məlumat verildi.

2013-cü ildə kitabxananın oxu zalında orta yaş qrup oxucularla yazıçı Sevinc Nuruqızının Qarabağ ağrıları, müharibənin gətirdiyi dəhşətlər, əsir soydaşlrımızın

işgəncə dolu həyatına həsr edilmiş “Qisas” adlı kitabının müzakirəsi keçirilmişdir. Kitab uşaqlarda böyük maraq doğurmuşdur. Əsərdə əsir uşaqların orqanlarının qanunsuz transplantasiyası məsələsi diqqəti çəkmişdir. Uşaqlar bununla bağlı öz fikirlərini söyləmişlər.

Hamımıza bəllidir ki, hər bir insanın əhəmiyyəti onun Vətən qarşısında borcu ilə ölçülür. Vətənin layiqli övladı olmaq üçün daha çox elmi biliklərə yiyələnmək lazımdır. Hazırda komputer əsrində yaşasaq da, elmi biliklərə yiyələnmədən mənəviyyatca saf, milli dini dəyərlərə sahib olmaq olmaz. Çünki, bu biliklər yetişməkdə olan gənc nəslin daha kamil inkişaf etməsi üçün vacib olan əsas ünsürlərdəndir. Çünki insan öyrənməklə formalaşır, mətinləşir, dərin biliyə yiyələnir. Bəs kamil vətəndaş necə olmalıdır? Necə yaşamalı, həyatını necə qurmalıdır?

Yetkinlik yaşına çatmamış, və müstəqil həyata qədəm qoymuş yeniyetmələr daha çox bu suallarla qarşılaşırlar: Onlara bu sualların həllində kömək edənlər sırasında isə məktəb və mədəniyyət ocaqlarımızla yanaşı kitabxanalarımızda xüsusi yer tutur.

Yetkinlik yaşına çatmayanların çoxu təhsil almadan əmək fəaliyyətinə başlayaraq cəmiyyət qarşısında müəyyən vəzifələr daşımağa başlayırlar. Bu baxımdan hələ öz hüquqlarını dərindən bilmədən, kortəbii şəkildə heç bir məsuliyyəti dərk etmədən cəmiyyətə atılırlar. Bu da onlarda hələ uşaq yaşlarından bilməyərəkdən müəyyən hüquq məsuliyyətinə cəlb olunmağına gətirib çıxarır. Yeniyetmələrin çoxu polis, müstəntiq, hüquq, prokurorluq, idarələrinin funksiyalarını, hüquq və vəzifələrini düzgün başa düşmür. Buna görə də ətraf aləmdə baş verən hadisələrin çoxuna kortəbii münasibət bəsləyərək nəyin cinayət olduğunun fərqinə varmırlar.

Yetkinlik yaşına çatmayan vətəndaşlar 18 yaşına çatmayan vətəndaşlardır. Böyüməkdə olan nəslin tərbiyəsini təmin etmək, onun ictimai-faydalı əməyə hazırlanması üçün qayğı göstərmək Azərbaycan Respublikasının konstision borcudur. Mülki hüquqda vətəndaşların tam fəaliyyət qabiliyyətinin başlanması və bunun əsasında öz hərəkətləri ilə bütün fəaliyyət sahələrində hüquq və vəzifələr əmələ gətirmək imkanı yetkinlik yaşı ilə əlaqələndirilir.

Böyüməkdə olan gənc nəslin hüquqi baxımdan tərbiyələndirilməsi üçün

## Uşaq cinayətkarlığı ilə mübarizə:

Yetkinlik yaşına çatmayanların hüquq tərbiyəsində məktəblərin, pedoqoji müəsisələrin, uşaq təşkilatlarının, kitabxanaların xüsusi rolu vardır. Məhz bu kollektivlərin həyata keçirdikləri tədbirlər nəticəsində onlarda cəmiyyət hadisələri haqqında xüsusi təsəvvür yaradılaraq, həyat hadidsələrinə düzgün yanaşmaq üçün onlara zəmin yaradılır.

Yaş artıqca yeniyetmələrdə cinayət hüquq normalarını öyrənməyə maraq da güclənir. Bu psixoloji meyl əsasən VII – IX sinif şagirdləri üçün səciyyəvidir. Belə ki, azyaşlılar barəsində cinayətetmə, onları cinayətə cəlb etmə məsuliyyəti ağırlaşdıran hallardır. Yetkinlik yaşına çatmayanları cinayətkarlığa, alkoqolizmə, narkomaniyaya cəlb etmə, və s. görə də ciddi cəzalar tətbiq olunur.

Millətin gələcəyini müəyyənləşdirən o millətin uşaqları, gəncliyidir. Dünənin uşaqları bugünün gəncləri, bu günün gəncləri isə sabahın gələcəyidir. Sabahın idarəçiləri, sabahın ailə başçılarıdır. Ancaq bəzi problemlər var ki, bu dilindən, irqindən asılı olmayaraq hər bir millətin problemidir. Spirtli içkilərə aludəçilik, narkomaniya, "Qics" belə problemlərdəndir.

Yetkinlik yaşına çatmamışların cinayətkarlığına qarşı mübarizəni gücləndirmək, bu sahədə görülən işlərin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının kabineti 6 mart 1995-ci iltarixdə **"Azərbaycan Respublikasında yetkinlik yaşına çatmamışların cinayətkarlığına qarşı mübarizə"** üzrə Respublika Kompleks proqramı haqqında qərar qəbul etmişdir.

Bu qərara əsasən Azərbaycanda ən çox yetkinlik yaşına çatmamış uşaqların aludə olduğu dövriyyədə olan narkotik vasitələrlə mübarizənin gücləndirilməsi haqqında tədbirlər gücləndirilməsi nəzərdə tutulmuşdur.

**Bundan əlavə bu gün ölkəmizdə ən vacib problemlərdən biri də uşaq alveri ilə mübarizə problemidir. Bu gün bütün dünya cəmiyyətlərinin əsas sosial bəlalarından birinə çevrilmiş uşaq alveri problemi Azərbaycan cəmiyyətindən də yan keçməmişdir. Müasir köləlik sayılan insan alveri artıq transmilli mütəşəkkil cinayətkarlığın növlərindən biridir. Mahiyyət etibarı ilə hər bir ölkənin təhlükəsizliyinə ciddi təhdidlər yaradan insan alveri artıq ümumbəşəri problemlərdən biri olmuşdur.**

**İlk öncə aydınlaşdıraq görək insan alveri dedikdə nələr başa düşülür? Beynəlxalq hüquqa görə, insan alveri insanların istismar məqsədi ilə daşınması, ötürülməsi, gizlədilməsi, zor tətbiqi ilə hədələmə, yaxud zor tətbiq etmək, fırıldaqçılıq, aldatma, hakimiyyətdən və vəziyyətdən sui-istifadə etmək yolu ilə oğurlanmasıdır. "İnsan alveri ilə mübarizə haqqında" Azərbaycan Respublikası Qanunda insanların istismarı məcburi əmək (xidmət), istismar, köləlik, köləliyə bənzər adətlər və vəziyyəti, orqanlarının və toxumalarının qanunsuz çıxarılması, habelə insanların digər formada istismar edilməsi kimi müəyyən edilmişdir. İnsan alverçiləri öz qurbanlarını cəmiyyətin ən zəif təbəqələrindən seçirlər. İnsan alverinin ən dəhşətli forması isə insan orqanlarının və toxumalarının transplantasiyasıdır. Transmilli mütəşəkkil cinayətkarlıq haqqında BMT Konvensiyasına görə, insan alveri beynəlxalq mütəşəkkil cinayətkarlığın başlıca istiqamətlərindən biridir. Dünya üzrə bu cinayətdən əldə edilən gəlir milyard dollarlarla hesablanır.**

Yetkinlik yaşına çatmayanlarla cinayətkarlığa qarşı mübarizə sahəsində F.B. Köçərli adına Respublika Uşaq kitabxanasının rolu böyükdür. Kitabxanada hüquq təbliğinə dair hər hansı tədbirlərin maraqlı və canlı olmasına xüsusi diqqət yetirilir.

Bütün bunlardan irəli gələn bir sıra vəzifələr - uşaq kitabxanaları qarşısında duran əsas vəzifələrindən biridir.Uşaq və yeniyetmələr arasında hüquqi biliklərin təbliği bu işdə əsas yer tutur. Qeyd etmək lazımdır ki, respublikamızın ümumtəhsil məktəblərində hüquq elminin bir fənn kimi öyrənilməsi ilə yanaşı hüquq biliklərinin təbliğini və hüquq tərbiyə işinin genişləndirmək məqsədi ilə şəhər, rayon, uşaq, və məktəb kitabxana təbliğat işləri aparmalıdır. Belə ki, hüquq məsələlərinə dair mühazirələr, viktorinalar, söhbətlər, ədliyyə, məhkəmə, polis, prokurorluq işçiləri ilə görüşlər təşkil edilməli, hüquq mövzusunda konfranslar keçirilməlidir. Bu mövzuda kitabxanada kinofilmlərə, teatr zallarında uşaqlarla teatr tamaşalarına kütləvi baxış keçirilməsi məsləhətdir. Son zamanlar bu mövzuda Gənc tamaşaçılar teatrında səhnəyə qoyulmuş məhşur ingilis yazıçısı Çarls Dikkensin “Oliver Tvist” əsərinə keçirilmiş baxış keçirilmişdir. Romanda ingilis cəmiyyətində baş alıb gedən haqsızlıqlar, uşaq əməyindən istifadə cinayətkarlığın geniş yayılmasından bəhs edilir. Əsərin müzakirəsi zamanı uşaqları cinayətkarlığa necə getməsi, şəraitin mühitin rolu göstərilir.

Yetkinlik yaşına çatmayan oxucular üçün bu sahədə kitab təbliği üçün sərgilərin təşkili əhəmiyyətlidir.

Məlumdur ki, kitab müzakirələri və oxucu konfransları uşaq kitabxanaları üçün kitab təbliğində böyük əhəmiyyətə malikdir. Bunlar məktəbli oxucuların formalaşmasına, əxlaq tərbiyəsinə böyük təsir göstərir. Məhz buna görədə hüquqi mövzuda, cinayətkarlıqla mübarizə mövzularında bu kimi tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilir.

Cinayətkarlığa qarşı mübarizəyə dair ədəbiyyatın müzakirəsi zamanı ədəbiyyatın, mövzunun seçilməsi zamanı uşaqların yaş həddi nəzərə alınmalı, onların kitabın məzmununu müstəqil başa düşmək qabiliyyətinə uyğun seçilməlidir. Son zamanlar ədəbiyyatımızda yazılan Nüşabə Məmmədlinin “Zəngulə” əsəri, Sevinc Nuruqızının “ Qisas ” əsəri bu mövzuda yazılmış əsərlərdən biridir.

Həmçinin Yetkinlik yaşına çatmayanlara cinayət anlayışı haqqında geniş məlumatı Azərbaycan mütəfəkkiri Məhəmməd Nəsrəddin Tusinin “ Əxlaqi Nasir ” əsərinin müzakirəsi zamanı vermək olar.

Məhəmməd Nəsrəddin Tusinin bu əsəri əsl elmi dəyərdən, böyük zəkanın məhsulundan ibarət olan hüquqi görüşləri Azərbaycan xalqının ictimaii fikir tarixində parlaq səhifəni təşkil edən, bu günədək dəyərini itirməyən bir əsərdir.







Düzgün tərbiyə, yaşlıların yaxşı nümunəsi yeniyetməni güclü, mənəvi cəhətdən möhkəm, xeyirxah edir. Tərbiyəsizlik və yaxud  pis tərbiyə, yaşlıların pis nümunəsi yetkinlik yaşına çatmayanlarda mənfi hislərin yaranmasına səbəb olur.Yetkinlik yaşına çatmayanların tərbiyəsi cəmiyyətin əsas vəzifələrindəndir.

Bununla əlaqədar qeyd etdiyimiz kitabda ( Əxlaqi- Nasir) N. Tusi uşaqların pis əməllərdən (cinayət əməllərindən ) çəkindirilməsi işində müəllimlərin xüsusi rolunu göstərir. Müasir dövrdə bu işdə kitabxançı əməyini də qeyd etmək yerinə düşər.




Ümumiyyətlə yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığa qarşı mübarizə məqsədi ilə keçirilən tədbirlərdə N. Tusinin əxlaqi-Nasir kitabı əsasında söhbətlərin, oxucu konfranslarının, müzakirələrin keçirilməsi yerinə düşərdi. O, dövlət, hüquq, qanunvericilik sahəsində əsərlər qoyub getməsə də, məşhur “ Əxlaqi-Nasir ” kitabını qoyub getmişdir.

Yetkinlik yaşına çatmayan oxucular arasında cinayət məsələlərinə həsr olunmuş bədii ədəbiyyat böyük maraqla oxunur. Nəsrəddin Tusi dövlət və hüquq məsələlərinə ətraflı toxunmuşdur. O, dövrün sosial problemlərinə obyektiv mövqedən yanaşmışdır. Cəmiyyətə qarşı törədilən təhlükəli əməli cəmiyyətə qarşı mənfi hal kimi qiymətləndirmişdir.

Nəsrəddin Tusi dövlət və hüquqməsələlərinə dair görüşlərini ifadə edərkən cinayət və cəza məsələlərinə kifayət qədər ətraflı toxunmuşdur. Onun fikrincə cinayət ilk növbədə adamlara qarşı yönələn təhlükəli faktor, insanlara qarşı yönələn şər əməldir.O yazırdı:” Dava- dalaş” dünyanın nizam –intizamını pozmaq istəyən əməllərdəndir. Filosof möhtəkirləri fırıldaqçı, əliəyri, onların hərəkətlərini

isə zülm adlandırırdı. Onun cinayət və cəza məsələlərinə dair fikirlərində insan və onun taleyi ön plana çəkilir.

Oxucularla kitab müzakirələri zamanı kitabxanaçı əməyi əsas yer tutur. Bədii ədəbiyyatda sözün kəsərinin nəzərə alınması kitabxana işçisinin işində əsas meyar olmalıldır. Oxucular arasında **“Azərbaycan ədəbiyyatında sərxoşluq əleyhinə mübarizə motivləri”, “ Azərbaycan dedektiv ədəbiyyatı”, “ Cəmşid Əmirovun romanları ” və s.**

Bədii ədəbiyyat ictimai fikrə təsir göstərmək imkanına malikdir. Azərbaycan yazıçısı, Natiq Rəsulzadənin yeni kitabı **“Kabuslar arasında”** kitabı yeniyetmələr arasında yayılmış narkamaniyadan bəhs edir.

Yetkinlik yaşına çatmayanlar arsında cinayətkarlığı artıran səbəblərdən biridə narkomanlıqdır.

Narkomanlıq... Bu təhlükəli bəladan danışarkən onunla mübarizənin təşkili məsələlərindən danışmalıyıq. F.Köçərli adına Respublika Uşaq kitabxanası Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2007-ci il tarixli 2271 saylı Sərəncamı ilə təsdiq edilmiş “ Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər)”ın tələblərindən irəli gələn vəzifələri yerinə yetirmək və Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyanın “İş Planı”ndan irəli gələn bir sıra vəzifələrin icrasını təmin etmək məqsədi ilə "Narkomaniyaya yox deyək!", “ Narkomaniya- Ağ ölüm ” devizi altında tədbirlər planına uyğun olaraq məktəblərdə, internat və uşaq evlərində tədbirlər keçirmişdir.

Həmçinin kitabxanada son illərdə kitabxananın Məlumat biblioqrafiya şöbəsi Narkomaniya ilə mübarizə sahəsində maarifləndirmə işi aparmaq məqsədilə “Sağlam həyat tərzi keçirək” başlığı altında buklet hazırlamışdır. Bu bukletdə Azərbaycan Respublikasının “ Gənclər siyasəti ” və “ Narkoloji xidmət və nəzarət haqqında ” qanunlarının maddələri öz əksini tapmış və yeniyetmələr arasında təbliğat işi aparmaq üçün ədəbiyyat siyahısı verilmişdir.

Bu il həmçinin “ **Sağlam həyat tərzi keçirək ”** adlı yeni geniş ədəbiyyat siyahısı da şöbə tərəfindən hazırlanmışdır. Vəsait yazıçı Sona Xəyalın əsərindən götürülmüş bir parça ilə başlayır. Burada müvafiq narkomaniya ilə bağlı dövlət tərəfindən qəbul edilmiş sənədlər verilmişdir. Müxtəlif tədbirlərdə əyani vəsait kimi Narkomaniya ilə bağlı hazırlanmış slaydlar isə tədbiri, mövzunu daha canlı edir.

Bu vəsaitlər istifadə etmək üçün kitabxananın clb.az saytında yerləşdirilmişdir. Həmçinin hazırlanmış ədəbiyyat siyahısında narkomaniya ilə bağlı müvafiq dovlət sənədləri göstərilmişdir.






Bundan başqa  Məlumat-biblioqrafiya şöbəsi 2 saylı texniki-humanitar liseyində, 164, 152 saylı məktəblərdə yuxarı sinif şagirdləri üçün “Sağlam həyat tərzi keçirək” başlığı altında sərgi icmallar da təşkil etmişdir.

Bu tədbirlərlə yanaşı narkomaniyaya qarşı mübarizədə kitabxanamız mübarizə tədbirlərini gücləndirir.

Uşaq cinayətinə qarşı mübarizənin təbliğ edilməsi üçün kitabxanamızda uşaqların hüquqi biliklərə dərindən yiyələnməsi üçün gündəlik qəzet və jurnallarda dərc edilmiş qanunlarla oxucuları yaxından tanış edilməsi böyük əhəmiyyət daşıyır. Məktəbli oxucular arsında isə bu bilikləri bu sahədə müxtəlif  kitab təbliği formaları ilə həyata keçirilir.

Narkomaniyaya qarşı aparılan təbliğat işləri zamanı onları başa salmaq lazımdır ki, hər bir yeniyetmə bilməlidir ki, əgər narkotik maddə qəbul edirsə, dəhşətli ağrılar tapacaq və bu bəlada heç zaman qurtara bilməyəcək. Təəsüflə qeyd etmək lazımdır ki, azyaşlılar və yeniyetmələr arasında bu bəladan daha çox əziyyət çəkir. Və onlar daha sürətlə yayılır. Oxucularla söhbət zamanı onlara narkomaniyanın gətirdiyi bəlalar şərh olunmalıdır. Narkomaniya  hamı üçün həm narkomanın özü həmdə, ətraf mühit –ailə, kollektiv cəmiyyət  üçün də zərərlidir. Sirr deyil ki, mövcud cinayətlərin çoxu elə narkomaniyanın təsiri altında törədilir.

Kitabxanalarla yanaşı mətbuat, radio və televiziyalar da yetkinlik yaşına çatmayan uşaqlarla cinayətkarlığa qarşı və narkomaniyaya qarşı mübarizədə güclü təbliğat işləri ilə məşğul olmalıdır. Çünki bu problem elə bir dəhşətli problemdir ki, ona qarşı mübarizədə bütün vasitələrdən istifadə etməliyik. Xüsusən azyaşlıları və yetkinlik yaşına çatmayan uşaqlarla mübarizədə bu işi daha da

gücləndirməliyik. Sağlam zəkaya, fiziki qüvvəyə malik olan Azərbaycan xalqı bu ölkənin yeganə varisidir.

**İstifadə edilmiş ədəbiyyat:**


**Abdullayev A.** Qanunları öyrənirik. – B:Gənclik, 1980.- 68 s.

**Məmmədli N.** Zəngulə. – B.:İdeal-Print, 2010. – 260 s.

**Tusi X.N.** Əxlaqi Nasir. – B.: Lider, 2005. – 280 s.

**Həsənov E.** Yetkinlik yaşına çatmayanların törətdikləri cinayətin qarşısını almaq məsələləri. – B.: Maarif, 1991. – 172 s

**Həsənov E.** Gənclər arasında narkotizmin qarşısının alınması sahəsində daxili işlər orqanlarının fəaliyyəti. – B.: Sabah,1993. – 204 s.

Hüquq ensklopedik lüğəti. – B.: ASE. - 1991. – 544 s.